F O L K L O R Ş Ü N A S L I Q

UOT: 398:801.6
https://doi.org/10.59849/2311-8482.2025.3.62

AYTƏN CƏFƏROVA*

# ETNİK TƏFƏKKÜRDƏ QIRMIZI RƏNGİN MÜHAFİZƏ FORMULU
## (Naxçıvan folklor mətnləri əsasında )

*Rənglər xalq mədəniyyətində simvolik yozum əlamətidir. Onların xalq yaradıcılığı örnəklərində, eləcə də xalqın mərasim düşüncəsi faktlarında yer alaraq müxtəlif mənalar kəsb etməsi qədim mədəniyyət düşüncəsi haqqında aydın məlumatdır.*

*Mövsüm və məişət mərasimlərinin əsas atributiv rəngi olan qırmızı rəng Naxçıvan ərazilərindən toplanmış örnəklərdə mübarizə simvolu kimi təqdim edilir. Böyük Çillə mərasimində kəsilən giləmeyvənin – qarpızın içərisinin qırmızı rəngi, Novruz mərasimində cücərdilən səməninin belinə qırmızı lentin bağlanması, gəlin ər evinə köçəndə onun belinə qırmızı lent bağlanması, başına məhz qırmızı alma atılması və kimi faktlar qırmızının mübarizə simvolu haqqında dərin məlumat verir. Eləcə də qırmızı bəd ruhlardan qoruyuculuq, mühafizə funksiyasına da malikdir.*

***Açar sözlər:*** *rənglər, xalq mədəniyyəti, atribut, simvol, mübarizə, qədim, örnək.*

### Giriş

Folklorşünas, mərhum alim Bəhlul Abdulla qırmızı rəngi göz ruhunun rəngi hesab edir və bu münasibətlə də belə yazır: “...Bəzi türk xalqlarında qırmızı rəng qutsal sayılmış və o, göz ruhunun rəngi hesab edilmişdir. Bu göz ruhu özü qırmızı olmaqla bərabər, geyimi də yalnız və yalnız qırmızı təsəvvür edilmişdir” [1, s.429]. Alimin bu izahı Naxçıvandan toplanmış folklor örnəklərində qırmızı rəngin daşıdığı semnatikaya da aid edilə bilər. Bir inanc örnəyi bu fikri çox aydın izah edir və təsdiq edir: “Göz atanda, səyriyəndə onun üzərinə qırmızı rəngli parçadan çıxarılmış sap qoyaraq belə deyərlər ki, mən səni sevindirdim, sən də məni sevindir” [2, s.170]. Deməli, gözün üzərinə qırmızı rəngli sap qoyaraq onu “sevindirən” insan göz ruhunun varlığını və alim B.Abdulla dediyi kimi, məhz qırmızı geyimli olduğunu təsdiq edir.

### Əsas təhlil

Qırmızı rəng, xalq təfəkküründə xoşbəxtlik, uğur rəmzi kimi daha çox tanınır. Bunu Naxçıvandan toplanmış örnəklər daha aydın ifadə edir. Bu örnəklərdə qırmızı rəngin yeri və məqamı, əsasən, xoş günlərlə, sevincli günlərlə daha çox bağlıdır. Toy mərasimi ilə bağlı olan kiçik janr örnəklərindən birində də deyildiyi kimi: “Gəlin köçəndə başının üstdə qırmızı, ya da ağ toyuq tutarlar. Deyərlər ki, qoy, xoşbəxt olsun” [3, s.53]. Bu örnəkdə iki rəngin qırmızı və ağın qarşılaşdırılmasını müşahidə edirik. Onlarının ikisinin də eyni funksiya daşıması örnəkdə aydın müşahidə edilir. Deməli, ağ rəngin Naxçıvan folklor örnəklərində müsbət ruh xarakteri qırmızı rəngin xoşbəxtlik, bəxtəvərlik ruhu ilə üst-üstə düşdüyündən gəlinin başı üzərində tutulan, bar-bəhrə, övlad vermə simvolu kimi qəbul edilən toyuğun məhz qırmızı, ya da ağ rəngdə olması məqsədəuyğundur.

Qırmızı rəngin xoşbəxtlik ruhu təkcə inanc örnəklərində deyil, həm də toy mərasiminin bütün mərhələlərində öz ifadəsini tapır. Gəlinin ismət, ar-namus simvolu daşımasını bir daha qabartmaq üçün onun üzünə qırmızı duvaq salınır, ata evindən çıxanda belinə qırmızı lent bağlanılır. “Toyda qızı evindən çıxardanda belinə qırmızı lent bağlıyarlar. Qırmızı lent qızın təmizliyini, paklığını bildirir” [2, s.32]. Qırmızı duvaq da eyni əlaməti daşımaqla yanaşı, gəlinin bəd ruhlardan, bəz nəzərdən qorunması inancını özündə daşıyır. Bir bayatı örnəyi də bunu təsdiq edir:

Zülf salıb üzə dilbər,
Çıxıbdı düzə dilbər.

Duvaq salın üzünə,
Gəlməsin gözə dilbər [2, s.32].

Paklıq, təmizlik, xoşbəxtlik, uğur rəmzi sayılan qırmızı rəngin, örnəklərdən də müşahidə edildiyi kimi, bəd ruhların vurduğu zərərdən qoruma xüsusiyyəti də vardır. Bununla yanaşı, qırmızının tanıtma, bəlgə simvolu kimi xüsusiyyəti də mövcuddur. Məsələn, kəlağayıdan baş örtüyü kimi istifadə edildiyi zamanlarda Naxçıvanda qadınların müxtəlif statusda olmaqlarını ifadə etmək məqsədilə onun rənglərinin seçilməsi adəti mövcud olmuşdur. Belə ki, müxtəlif rəngli kəlağayılardan müxtəlif mövqelərdə olan qadınlar (subay, evli və dul) istifadə ediblər. Biz, ağ rəngin tanıtma xüsusiyyətində bundan öncə də geniş bəhs etmişik. Məlumdur ki, qırmızı rəngli kəlağayıdan da, adətən, subay qızlar istifadə edərdilər. Burada qırmızının tanıtma funksiyası meydana çıxır. Yəni, qırmızı rəngli kəlağayı örtən qadının subay olduğu bəlli olurdu.

Qırmızı rəngin çağırış, dəvət funksiyası haqqında da Naxçıvan folklor örnəkləri əsasında bəhs etmək mümkündür. Belə ki, bu rəng qədim türkün mifoloji yaddaşı ilə sıx bağlı olduğu onun məhz dəvət funksiyası daşıması ilə də izah oluna bilər. Naxçıvan əhalisinin yaddaşında qorunan bir deyim faktı bunu aydın ifadə edir. Belə ki, əvvəllər kimisə mötəbər bir məclisə dəvət edəndə ona qırmızı alma göndərərdilər. Almanı həmin şəxsə aparan elçi də dəvət olunan şəxs tərəfindən uğurlu şəxs kimi qarşılanırmış. Bu ənənə indi də xalq dilində kinayə tutumlu məqsədli bir deyim faktında özünü qoruyur: “Filankəsin dalınca qırmızı alma göndərməmişik ki?!” [8, s.65]. Və ya bir atalar sözündə də dəvətin, eləcə də uğurun simvoli kimi alma yenə də özündədir: “Çay həmişə qırmızı alma gətirməz” [8, s.48]. Qırmızı alma yeni ailə həyatı quranlara övlad diləmə arzusunu da ifadə edir. Gəlin ər evinə gələndə bəyin evin damından onun başına məhz qırmızı alma atması bu fikrə xidmət edən məqam kimi diqqət çəkir. Eləcə də qırmızı almanın bəyin özü tərəfindən gəlinə atılması övlad diləmə arzusunu daha da aktivləşdirir. Mərasimdəki bu motiv nağıllarda da yayqın şəkildədir. Naxçıvan nağılları içərisində “Gül Sənavərə neylədi, Sənavər Gülə neylədi” [3, s.136] adlı nağılda dərviş uzun zaman övlad arzusunda olan padşaha üç dənə qırmızı alma verir. Qırmızı almaları hər üç arvadına verməyi, lakin almaların bir üzünü də məhz özünün – padşahın yeməyini tapşırır. Burada almanın qədim mifologiyalardakı qadın və kişi – cütlük simvolu olduğunu ifadə etdiyi aydınlaşır. Almanın qırmızı rəngi isə uzun zaman övladı olmayan padşahın övlad arzusunu gerçəkləşdirdiyi haqqındakı motiv “qırmızı alma və məhsuldarlıq”, “qırmızı alma və doğuluş” təsəvvürləri ilə bağlıdır. Qırmızı rəngin bar vermə düşüncəsi ilə bağlı olduğu kiçik janr örnəklərində də mövcuddur. Mövsüm mərasimləri ərəfəsində təbiətə qulluq edərkən mövcud texniki üsullarla yanaşı qədim düşüncədə var olan, uzun zamanın sınağından keçən, etnosun köklü düşüncələrinin məhsulu olan inanc və sınama örnəklərindən də istifadə olunur. Məsələn, yaz fəsli dönəmində, Boz ay müddətində bar verməyən ağacı qorxutma mərasimi icra olunur. Mərasim zamanı bar verməyən ağacı kəsəcəyi ilə “qorxudan” əli baltalı insana digər biri “mən zamin, kəsmə, gələn il bar verəcək” “təskinliyi”ndə qədim türklərdə sevilməyən, qəbul edilməyən qısırlıqla mübarizə düşüncəsi özünü aydın göstərir. Eləcə də qısırlıqla mübarizə bir inanc örnəyində öz ifadəsini tapır: “Bar vermiyən ağaca qırmızı bağlallar” [4, s.27]. Örnəkdən göründüyü kimi, qırmızı almanın əsas element olduğu bar vermə arzusunu ifadə edən “Almaatma” mərasimindəki övlad, bar diləyinin kökü məhz bar verməyən ağaca bağlanan qırmızı parça vasitəsilə qısırlığa qarşı mübarizə inancından qaynaqlanır.

Digər bir inanc örnəyində də qısırlıqla mübarizə düşüncəsi öz əksini tapır: “Axır çərşənbədə sağmal malın buynuzuna qırmızı bağlallar” [4, s.25]. Bu örnəkdə qısırlıqla mübarizə ilə yanaşı həm də heyvanın bar-bəhrə verəcəyi haqqındakı inanc qırmızı vasitəsilə simvollaşdırılır.

Qırmızı rəngin mübarizə rəmzi daşıması haqqında da geniş mifoloji düşüncələr mövcuddur. Bu düşüncələrdə qırmızı rəng həm də sonu qələbə ilə nəticələnən döyüşün simvolu kimi də qəbul edilir. Naxçıvanın halay və yallılarının icrasında da qırmızı rəngin qələbə simvolu öz ifadəsini tapır. Belə

ki, yallıbaşı deyilən yallının əsas təşkilatçısı olan oyunçunun əlində qırmızı rəngli yaylıq tutması fikrimizə sübutdur. Paralel olaraq, rəqsin sonuncu nümayəndəsi olan şəxsin – ayaqçının əlindəki ağ dəsmal və ya yaylıqdan da istifadə olunur. Bu da, əvvəldə haqqında bəhs etdiyimiz ki, qırmızı-ağ rənglərinin birgə işləndikdə sonu qələbə ilə bitəcəyinə inanılan mübarizə (qırmızı), eləcə də tam qələbə (ağ) simvolunu daşıyır.

Naxçıvanda icra olunan mərasim faktları qırmızı rəngin rəmzi xarakterləri ilə zəngindir. Biz məişət mərasimində - toy mərasim faktlarının daxilində qırmızı rəngin hansı mənalar daşıdığı haqqında bəhs etdik. Eləcə də mövsüm mərasimləri bu rəmzlərin ifadə ortamı olması baxımından heç də geridə qalmır. Qışın girməsini qeyd edən etnos onun daxil olduğu gecəni, təxmini, 20 dekabr günündə qeyd edir və onu Böyük Çillə adlandırır. Qeyd edək ki, bu mərasim təkcə Naxçıvanda deyil, türk xalqlarının çoxunda, bu kontekstdə də Azərbaycanın bir çox ərazilərində qeyd edilir. Lakin Naxçıvan Muxtar Respublikası ənənə düşüncəsi ilə cilalanmış ərazi olması baxımından daha aktivdir. Bu baxımdan bir çox ərazilərdə sözügedən ənənənin icrası olduqca zəif və ya heç icra olunmamasına rəğmən Naxçıvanda isə, əksinə hər mövsümdə bu mərasimin böyük coşqu ilə icrası müşahidə olunandır. Və bu mərasimin “olmazsa olmazlarından” hesab olunan qarpız – Çillə qarpızı da rənglərin simvolikası baxımından əsas atribut olaraq qədim insan tərəfindən simvolik tərzdə qəbul edilmişdir. Yəni qarpızın içərisinin qırmızı rəngdə olması qədim insanın soyuq qışla mübarizə əzmini ifadə edir. Biz əvvəldə də qırmızı rəngin, qələbəsinə əminliyi ifadə edən döyüş simvolunun olduğu haqqında da bəhs etmişdik. Burada da qədim insan qışdan salamat çıxacağına əmin olaraq, həm də bu bu əminliyi gücləndirmək üçün rituallar keçirir. Sözügedən çillə mərasimində əsas atribut kimi içi qırmızı rəngdə olan qarpızı seçilir. Sual doğura bilər ki, içərisi qırmızı rəngdə olan digər meyvələr də var. Buna narı misal göstərə və əlavə edə bilərik ki, cənubi Azərbaycanda bu mərasimdə qarpızla həmahəng məhz nar da seçilir. Qarpızın içərisinin qırmızı rəngi soyuq qışla mübarizəni, soyuq təbiətə qarşı dözümü, əzmi ifadə edir. Əvvəldə doğura bilən suala – niyə məhz qarpız? – sualına cavab olaraq deyək ki, qarpızın üzərinin yaşıl rəngi də qədim insanın qələbə ilə çıxacağı yeni həyatının rəmzi kimi qəbul edilir. Beləliklə, qarpızın içərisi – qırmızı, üzəri – yaşıl rəngdə olması qırmızı və yaşıl rənglərin qədim insan təsəvvüründə qələbəsinə inanılan döyüş və bu döyüşdən sonrakı yeni həyatı rəmzləndirir, qədim düşüncədən dövrümüzə bu rənglərin sintezi haqqında eyni məlumatı ötürür.

Çillədə qarpız kəsilməsinin başqa simvolik əlamətləri də vardır. Belə ki, qarpızın içinin qırmızı rəngdə olması bir tərəfdən də günəşi xarakterizə edir. Qırmızı rəng günəşin yerdəki obrazı kimi qəbul edilir. Ona görə qırmızı rəngin mövcud olduğu faktorlardan rituallarda istifadə etmək simvolik xarakter daşıyır. Qışın günəşli, şaxtasız keçməsi üçün qədim türklər icra etdikləri müxtəlif mərasimlərdə günəşi vəsf etmişlər. Qışdan sonra gələn yazın, eləcə də qışın günəşli olması üçün qırmızı rəngə etiqad etmişlər. Fikrimizcə, bu mistik baxış qarpızın çillə gecəsində yeyilməsini şərtləndirir. Qırmızı rəng həm də kökü qədim düşüncələrə əsaslanan, insanı bəd nəzərdən qoruyan faktordur. “Qədim zamanlardan Rusiyada həm xalq təfəkküründə, həm də xristian dinində qırmızı xüsusi rəng olaraq qəbul edilir. Konnotativ istiqamətdə xarakterizə edilərək o, ən yaxşılar ilə, əla olan nə varsa, baş olan, birinci olanla xarakterizə edilir və ya ən dərin üstünlüklə ölçülürdü: qırmızı kömür və qırmızı qızlıq, qırmızı alver və qırmızı uşaqlar, qırmızı sap, qırmızı terror. Bu sözlərdə açıqlıq, qədimlik, güclülük səslənir. Slavyanlarda da, başqa xalqlarda olduğu kimi, qırmızı rəng həyatı və qanı, müharibəni və sevgini işarələyirdi, ən çox isə günəşin rəngi kimi simvolizə edilirdi” [10, s.69].

Qırmızı rəngin Novruz ənənəsinin də sevilən, eləcə də dərin mənalar məcmusu kimi qəbul edilən rənglərindəndir. Novruz bayramı zamanı yumurta boyanması mərasiminin ən ibtidai rəngi olaraq qırmızı rəngdən istifadə edilib. Sonralar isə digər rənglərdən də istifadə müasir dönəmin düşüncələri baxımından müşahidə olunmaqdadır. Lakin qırmızı rəng yumurta boyanması üçün ən optimal və uyğun rəng olaraq seçilib. Qırmızı rəngdə boyanmış yumurtalar günəşi simvolizə edir.

Qırmızının Günəşin rəngi kimi simvolizə edilməsi qədim türklərdə mövcud idi. Mifoloji simvolikası və semantik strukturu baxımından digər rənglərlə müqayisədə qırmızı rəngin əhatə dairəsi, icra orrtamı çox genişdir. Toy mərasiminin əsas mərhələlərindən olan "Xınayaxdı" mərasiminin icra olunduğu məkanın başdan-başa qırmızı rəngli parçalarla, müasir dövrdə isə qırmızı rəngli aksessuarlarla bəzədilməsi məqamı hazırda da müşahidə olunur. Burada qırmızı rəngin qoruyuculuq, mühafizə etmə funksiyası daha qabarıqdır. Əsasən, qadınların iştirak etdiyi bu mərasimdə gəlinin bəd nəzərdən, demonik varlıqların vurduqları ziyandan mifoloji dünyada qoruyan rəng kimi qırmızı daha uyğun rəng olaraq seçilir.

Bəzi mətbəx örnəklərinin hazırlanması zamanı da qırmızı rəngli əşyalardan istifadə olunması məqamı hazırda Naxçıvan ərazilərinin mətbəx mədəniyyətində mövcuddur. Naxçıvan Muxtar Respublikasının Ordubad rayonunda "Siməni" adlı içkinin hazırlanması zamanı qırmızı rəngli kəlağayıdan etnik mədəniyyətə məxsus qədim inanclardan irəli gələn düşüncələr bəd ruhlardan qoruma, eləcə də Günəşi simvolizə edən rəngin hazırlanan içkinin təbii rənginə təsir edəcəyi ilə bağlı inancı doğurur. Qırmızı kəlağayıdan həm də içkinin bərəkətli olması inancı baxımından istifadə edilir. "Ordubad sakinlərinin dediyinə gorə, siməni, adətən, yaz aylarında çəkilir. İçkini hazırlamaq üçün eyni nəsildən olan qadınlar bir evə yığışırlar. Siməni hazırlanarkən yarpaq dolmasının da ortaya gətirilməsi mərasimi daha da maraqlı edir. Siməninin Məhərrəm ayında hazırlanması məqsədəuyğun sayılmır. Şənlik, sevinc simvolu kimi regionun əhalisinin qəbul etdiyi bu içki yaz aylarında fəslin onsuz da torpağa, insana bəxş etdiyi gözəlliyi, sevinci birə-beş artırır. Siməninin hazırlandığı qabın ağzını qapaqla örtüb, üzərinə qırmızı kəlağayı, ayna, daraq, qənd qoyurlar. Qənd şirinlikdir. İçkini hazırlayarkən heç bir şirin vasitədən istifadə edilmədiyi halda, dadı şirin olur. Ayna və daraqla bağlı inama gorə, Məhəmməd Peyğəmbərin (s.a.v.) qızı Xanım Fatimeyi-Zəhra (ə) həmin məkana gələcək, aynaya baxıb saçlarını darayacaq, kəlağayını da başına örtüb, yenidən qoyacaq yerinə. Qırmızı kəlağayı siməninin daha yaxşı qızaracağına işarədir. Siməni qabının üzərinə qoyulan kəlağayının qırmızı rəngdə olması da təsadüfi deyil. Bu, həm də mərasimin şər qüvvələrdən, göz-nəzərdən qorunacağına bəslənilən ümid mənasını daşıyır [7, s.31].

Naxçıvanda aparılan folklor ekspedisiyaları zamanı informatorların verdikləri məlumatlar vasitəsilə qırmızının xalq ənənəsində önəmli yer tutması haqqında məqamları müşahidə edirik. Belə ki, qədimlərdə doğumla bağlı mərasimdə qırmızı rəngdən geniş istifadə edilib: qırmızı kəlağayı, qırmızı sap, qırmızı parça və s. həyatın, sağlamlığın simvolu kimi çıxış edir. Yeni doğulanın göbəyinin qırmızı parça ilə sarınmasının ona uğur gətirəcəyinə inanılırdı. Yeni doğulmuş körpənin dərisinin qırmızı rəngi isə onun üzünömürlü olacağı ilə bağlı olan yaradılış simvolu kimi qəbul edilirdi.

Qırmızı rəngin bütün müsbət ruhdan ibarət olan xüsusiyyətləri ilə yanaşı dünya xalqlarının, o cümlədən, rus xalqlarının mifoloji təsəvvüründə o biri dünya ilə əlaqəli mənalandırılması da danılmaz faktdır. M.V.İsaeva bu haqda yazır: "Matəm mərasimində qırmızı rəngdən istifadə bu rəngin o biri dünya ilə əlaqəli olduğu inancından qaynaqlanır. Beloruslarda mərhumun əllərinə və ayaqlarına qırmızı sap dolayırdılar. Mərhumun baş geyimini də qırmızı rəngli parçadan hazırlayırdılar. Mərhumun anım günündə də evdəki əşyalara qırmızı rəngli parçalar örtülürdü" [9, s.198].

**Nəticə**

Aparılan araşdırma zamanı istər mərasim faktları, istərsə də kiçik janr örnəklərindən olan inanclar, sınamalar, eləcə də paremiyalarda qırmızı rəngin qoruyucu, mühafizə xarakteri müşahidə olunu. Ümumtürk inanc sistemində, eləcə də Azərbaycan türklərinin etnik təfəkküründə qırmızı rəngin mühafizə xarakteri daşıması qabarıqdır. Bu qoruma, mühafizə bəd ruhlardan, şər qüvvələrin təsirindən olduğu qədər təbiətin insan övladına yetirəcəyi soyuq kimi bəladan da qoruma funksiyasına malikdir. Yəni qara, soyuq qışdan insanı və onun təminat mənbəyi olan təbiəti günəş qoruyur.

Günəşin isə yerdəki simvolu qırmızıdır. Beləliklə, qırmızı həm mifik təfəkkürdə hami funksiyası daşıyır. Həm də günəş rəngi, onun simvolu olan qırmızı rəng təbiətlə insan arasındakı doğma münasibəti ifadə edən əlaqə vasitəsidir.

***AMEA Naxçıvan Bölməsi**
**Filologiya üzrə fəlsəfə doktoru, dosent**
**E-mail: ceferli_ayten@mail.ru***

## ƏDƏBİYYAT

1. Abdulla B. Rənglər / Azərbaycan etnoqrafiyası. Üç cilddə, III cild. Bakı: Şərq-Qərb, 2007, 568 s.
2. Azərbaycan folkloru antologiyası. Naxçıvan folkloru. Bakı: Sabah, 1994, 388 s.
3. Azərbaycan folkloru antologiyası. Naxçıvan folkloru antologiyası. I cild. Naxçıvan: Əcəmi, 2010, 512 s.
4. Azərbaycan folkloru antologiyası. Naxçıvan folkloru antologiyası. II cild. Naxçıvan: Əcəmi, 2011, 496 s.
5. Azərbaycan folkloru antologiyası. Naxçıvan folkloru antologiyası. III cild. Naxçıvan: Əcəmi, 2012, 765 s.
6. Azərbaycan nağılları. Naxçıvan. I cild. Bakı: Elm və Təhsil, 2005, 296 s.
7. Cəfərova A. Ordubad folklor mühitinin regional xüsusiyyətləri. Naxçıvan: Əcəmi, 2021, 200 s.
8. Naxçıvan paremioloji vahidləri: deyimlər, atalar sözləri və məsəllər. Naxçıvan, Əcəmi, 2022, 208 s.
9. Исаева М. В. Мифологическая семантика цвета у древних славян / М. В. Исаева. — Текст непосредственный // Первые Лойфмановские чтения: Аксиология научного познания : материалы Всероссийской научной конференции (Екатеринбург, 10-11 марта 2005 г.). — Екатеринбург: Издательство Уральского университета, 2006. — Выпуск 3. — с. 198-203.
10. Козьякова М.И. Красный цвет как исторический символ культуры / Эстетика и художественная культура. Вестник МГУКИ, 2023. №4, (114), с.68-79.

**Ayten Jafarova**

## RED COLOR PROTECTION FORMULA IN ETHNIC THOUGHT
## (Based on Nakhchivan folklore texts)

Colors are a sign of symbolic interpretation in folk culture. Their presence in folk art examples, as well as in the facts of people's ceremonial thought, and their acquisition of various meanings is clear information about ancient cultural thought.

Red color, which is the main attributive color of seasonal and everyday ceremonies, is presented as a symbol of struggle in examples collected from the territories of Nakhchivan. The red color of the inside of the berry - watermelon cut during the Boyuk Chilla ceremony, the red ribbon tied around the waist of the sprouted millet during the Novruz ceremony, the red ribbon tied around the waist of the bride when she moves to her husband's house, the red apple thrown on her head, and other facts provide deep information about the symbol of struggle of red. Red also has a protective and protective function against evil spirits.

**Keywords:** *colors, folk culture, attribute, symbol, struggle, ancient, example.*

**Айтен Джафарова**

## ФОРМУЛА ЗАЩИТЫ КРАСНОГО ЦВЕТА В ЭТНИЧЕСКОЙ МЫСЛИ
## (На основе фольклорных текстов Нахчывана)

Цвета являются знаком символической интерпретации в народной культуре. Их присутствие в образцах народного искусства, а также в фактах народной обрядовой мысли, и обретение ими различных значений – явная информация о древней культурной мысли.

Красный цвет, являющийся основным атрибутивным цветом сезонных и повседневных обрядов, представлен как символ борьбы в примерах, собранных с территории Нахчывана. Красный цвет внутренней части арбуза, разрезаемого во время обряда Бёюк Чилла, красная лента, повязываемая вокруг талии пророщенного проса во время обряда Новруз, красная лента, повязываемая вокруг талии невесты при переезде в дом мужа, красное яблоко, брошенное ей на голову, и другие факты дают глубокую информацию о символе борьбы красного цвета. Красный цвет также выполняет защитную и оберегающую функцию от злых духов.

**Ключевые слова:** *цвета, народная культура, атрибут, символ, борьба, древний, пример.*

*Akademik Muxtar İmanov tərəfindən təqdim edilmişdir.*

**İlk daxilolma tarixi: 21.06.2025**
**Son daxilolma tarixi:08.07.2025**